# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№268/4** **11 noyabr 2015-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasına**
**Fəxr üzvlərin seçilməsi barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.24-cü "Auditorlar Palatasına assosiativ və fəxri üzvlüyün təşkili" bəndinə və Palata Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 saylı "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasının məqsəd və vəzifələrinin həyata keçirilməsində mühüm töhfəsi olan şəxslər barədə Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış Siyahını müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həyata keçirilməsində mühüm töhfəsi olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri üzvü statusu verilsin:

- Səmədzadə Ziyad Əliabbas oğlu - Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik.
- Musayev Akif Fərhad oğlu - Azərbaycan Respublikasının Vergilər nazirinin müşaviri, AMEA-nın müxbir üzvü.
- Qasımov Süleyman Mehrəli oğlu - Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti.
- Abbasov İbad Musa oğlu - Bakı Biznes Universitetinin rektoru.
- Abbasov Qəzənfər Əli oğlu - Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasının profesoru.
- Bağırov Damət Abbas oğlu - Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru.
- Həsənov Cəfər İsmayıl oğlu - Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.
- İon Horia Neamtu - Rumıniya Maliyyə Auditorları Palatasının Fəxri Prezidenti.
- Koşkimbayev Sapar Xaysaxanoviç - Qazaxıstan Respublikası Auditorlar Palatasının prezidenti.
- Qənizadə Ramiz Tofiqi - Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdiri.

- Namazova Cəmilə Bayraməli qızı - Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasının dosenti.

- Rəhimova Nigar Məmməd qızı - Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü.

- Ruf Aleksandr Leopoldoviç - Rusiya Auditorlar Kollegiyasının prezidenti.

- Səbzəliyev Sifariz Mirzəxan oğlu - Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu" kafedrasının müdiri.

- Yakovenko Dmitriy Anatolyeviç - Samara Peşəkar mühasiblərin, maliyyə menecerlərinin və iqtisadçıların milli institutunun prezidenti.

- Yaqubov Şakir Hənifə oğlu - Azərbaycan Respublikası Auditorlar Palatasının "İqtisadiyyat və audit" jurnalının məsul redaktoru.

2. Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palataya Fəxri üzvlüyə qəbul məsələlərini bu Əsasnamənin müddəalarına uyğun həyata keçirsinlər.

3. Auditorlar Palatasının İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynalova tapşırılsın ki, Palatanın internet səhifəsində "Fəxri üzv" bölməsinin yaradılmasını təmin etsin.

4. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**